*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 avqust 2018-ci il № 66 (2282) Qiymıəti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir



*Bu günlərdə Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel Azərbaycan Respublikasına səfər edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib. Keçirilən görüşdə tərəflər arasında ikitərəfli siyasi, iqtisadi əlaqələr, ticarət əlaqələri, regional məsələlər müzakirə mövzusu olub. Geniş tərkibli görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin birgə mətbuat konfransı olub. Mətbuat konfransında çıxışı zamanı ölkə Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söz açıb:*

"Bu gün biz gündəlikdə duran bir çox məsələləri çox açıq, konstruktiv şəkildə müzakirə etdik. Əminəm ki, aparılan danışıqlar, keçirilmiş fikir mübadiləsi gələcək əməkdaşlıq üçün yaxşı zəmin yaradır.

Mən xanım Kanslerə regional təhlükəsizlik məsələləri, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verdim. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur, onları icra etmir. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır."

Çıxışı zamanı Dağlıq Qarabağ məsələsinə toxunan Almaniya Kansleri xanım Angela Merkel bir daha vurğulayıb ki, Almaniya bu münaqişənin həllində maraqlıdır.

Almaniya Kansleri Angela Merkel Azərbaycan Prezidenti İlham Əliyev ilə Bakıda keçirilən birgə mətbuat konfransında söyləyib:

"Ermənistanda yeni hökumətin qurulması faktı bəlkə də bu sahədə vəziyyətin yaxşılaşdırılmasına, danışıqlara təkan verilməsinə səbəb ola bilər və Almaniya da burada iştirak edə bilər. Biz regionun təhlükəsizliyi haqqında da danışdıq. Azərbaycanın coğrafi vəziyyəti çox maraqlıdır, yəni, bir tərəfdən Rusiya, bir tərəfdən İranla əhatə olunub, Türkiyə ilə əlaqələri var. Biz bu fikirlə razıyıq ki, münaqişələr sülh, danışıqlar yolu ilə həll olunsun və bu regionda mövcud olan bütün münaqişələr sülh yolu ilə həll edilməlidir."

Angela Merkel azərbaycanlı jurnalistin sualına cavabında isə Dağlıq Qarabağ münaqişəsinin həlli yolunun axtarılması üzərində işlənildiyini bildirib: "Mən çox şadam ki, hazırda heç olmasa müəyyən sakitlik var. Yəni, hazırda insanlar orada zərər çəkmirlər və əlbəttə, Almaniya BMT Təhlükəsizlik Şurasının qərarları əsasında səylərini davam etdirəcək və aidiyyəti regionlarda insanların vəziyyətinin yaxşılaşması üçün məsələnin həllini tapmağa çalışacaq."

**"Azərbaycan Ordusu"**



Ordu quruculuğu - səmərəli islahatlar, uğurlu nəticələr

2-ci səhifədə



Şəxsi heyətin sağlamlığının keşiyindəyik

3-cü səhifədə



"Beynəlxalq Ordu Oyunları-2018" yarışlarında milli-mənəvi dəyərlərimiz layiqincə təmsil olundu

4-cü səhifədə



Azərbaycanda milli hərbi təhsilin yüz illik tarixi

6-cı səhifədə

*Heydər Əliyev irsini öyrənirik*

# Ordu quruculuğu - səmərəli islahatlar, uğurlu nəticələr

*Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra dövləti və dövlətçiliyi inkişaf etdirən islahatlara başladı. Qısa müddət ərzində həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmizin həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğu istiqamətində dönüş yarandı.*




Ulu Öndər 1993-cü il noyabrın 2-də radio və televiziya ilə çıxış edərək, ölkədə yaranmış vəziyyətlə bağlı Azərbaycan xalqına tarixi müraciət etdi. Azərbaycan oğullarını ordu sıralarına, yurdumuzun müdafiəsinə səslədi. Qısa müddət ərzində yüzlərlə, minlərlə vətənpərvər gənc silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxdılar. Təcavüzkar Ermənistanın torpaqlarımızı işğal etməsinə yalnız Heydər Əliyevin Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi cəbhə bölgələrinə səfərlərindən, zabit və əsgərlərlə görüşündən sonra son qoyuldu. Onun cəbhə xəttinə gəlişi, çıxışları, dəyərli və qiymətli sözləri hərbçilərin qələbə əzmini daha da artırdı, döyüş ruhunu yüksəltdi. Yenicə formalaşan Azərbaycan Ordusunun bölmələri bir sıra bölgələrdə uğurlu əməliyyatlar həyata keçirərək düşməni geri sıxışdırdılar. Müharibədə ciddi dönüş yarandı. Doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımız öz ev-eşiyinə qayıtdı.

Müasir Azərbaycan dövlətinin formalaşması və inkişafı xalqımızın ümummilli lideri, görkəmli sərkərdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Ulu Öndər Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verdi. Təkcə bu gün üçün deyil, qarşıdakı onilliklər, yüzilliklər üçün dövlətimizin inkişaf strategiyasını müəyyən etdi. Başqa istiqamətlərdə olduğu kimi, hərbi təhsil sahəsində də uğurlu islahatlar həyata keçirildi. Atılan inamlı addımlar, göstərilən səylər hədər getmədi. Qısa müddət ərzində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü və qüdrətli ordu yaradıldı. Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışarkən dövlətimizin etibarlı qoruyucusu, müdafiəçisi olan Azərbaycan Ordusunun qurucusu və yaradıcısı olması faktını dönə-dönə vurğulamalıyıq. Dahi şəxsiyyətin Ali Baş Komandanlığı dövründə ordumuz hərb elminin prinsipləri əsasında yaradıldı, dövlət səviyyəsində hərtərəfli qayğı və yardımla əhatə olundu, müasir dünya ölkələrinin təcrübəsi əsasında formalaşma yolu keçməyə başladı. Ulu Öndər həmişə çıxışlarında fərəhlə deyirdi: "…İndi bizim hərtərəfli təlim görmüş, yüksək döyüş hazırlığına malik güclü ordumuz var". Bu gün hər birimiz fəxrlə deyə bilərik ki, sıralarında Azərbaycan oğullarının xidmət etdiyi ordu, məhz ümummilli liderimiz Heydər Əliyev kimi böyük bir sərkərdənin əsəridir. Ulu Öndərin arzularının və məqsədlərinin məhsuludur.

Ümummilli Lider dəfələrlə irimiqyaslı təlimlərdə iştirak edərək ordumuzun hər bir zabitinin, əsgərinin döyüş vərdişlərinin artırılmasına xüsusi diqqət yetirirdi. Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyev deyirdi: "Bizim ordumuz, Silahlı Qüvvələrimiz torpaqlarımıza hücum edənlərin qarşısını almağa hər an, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır". Məhz onun atalıq qayğısından ruhlanan hərbi hissə komandirləri şəxsi heyətin döyüş ruhunu daha da yüksəltmək üçün səylə çalışırdılar. Təlim və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə can atırdılar. Vətənin keşiyində ayıq-sayıq dayanan və düşməni məğlub etməyə qadir olan əsgərlər hazırlayırdılar.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs haqqında razılaşma imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi. Uğurla həyata keçirilən islahatlar nəticəsində Azərbaycan Ordusunun maddi-texniki təminatı getdikcə yaxşılaşdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı daha da artdı, döyüş ruhu, qələbə ovqatı yüksəldi. Bu gün inamla demək olar ki, müasir, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır.

Ümummilli liderimiz Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. 1997-2001-ci illərdə zabit heyətinin təkmilləşdirmə kurslarının, C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının (27 fevral 2004-cü ildən Heydər Əliyev adına Hərbi Lisey), ehtiyat zabitlərin hazırlıq kursunun və Azərbaycan Tibb Universitetində hərbi tibb fakültəsinin yaradılması da Azərbaycan Ordusunun peşəkar, bilikli, Vətəninə, xalqına sadiq hərbçilərlə təmin edilməsində böyük əhəmiyyət kəsb edir.

Məhz ulu öndər Heydər Əliyev dövlətimizin imicini beynəlxalq aləmdə yüksəltdikdən sonra Azərbaycan Ordusunun da dünya ölkələrinin ordularına inteqrasiya etməsinə şərait yarandı. Həyata keçirilən uğurlu islahatlar nəticəsində ordumuzun beynəlxalq əlaqələri qısa müddət ərzində möhkəmləndi və proses bu gün də sürətlə davam etməkdədir. Ümummilli Liderimizin təşəbbüsü ilə Azərbaycan Ordusunun tərkibində formalaşan sülhməramlı taborun şəxsi heyəti Kosovoda, Əfqanıstanda və İraqda sülhün qorunmasında fəal iştirak edib. Bu gün isə Azərbaycan əsgəri Əfqanıstan torpağında sülhyaratma əməliyyatlarında xidmətini uğurla davam etdirir. Bütün bunlar ordumuzun beynəlxalq aləmdə artan nüfuzunun bariz nümunəsidir. Ordumuzun zabit və əsgərləri xidmətləri ilə belə dəyərli nümunələrin sayını artırmağa çalışırlar. 2016-cı ilin aprel döyüşləri ordumuzun gücünü və qüdrətini bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuz daha da güclənib. Müntəzəm olaraq təlim və məşğələlərdə iştirak edən zabit və əsgərlərimizin döyüş təcrübəsi və peşəkarlığı daha da artıb. Daim artan bu döyüş hazırlığı isə onları sonda qələbəyə qovuşduracaq.

Ümummilli Liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirilir. Ordumuzun döyüş hazırlığının daha da artırılması ilə bağlı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi bütün əmr və tapşırıqlar Müdafiə Nazirliyi rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır və yüksək səviyyədə icra olunur. Günü-gündən gücünü, qüdrətini artıran ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etməyə hər an hazırdır.

Dünyanın hər bir xalqının öz xilaskar ordusu ilə öyünməyə, qürur duymağa haqqı var. Qəhrəman Azərbaycan xalqı da öz qüdrətli ordusu ilə öyünür, fəxr edir. Əminlik hissi ilə qeyd etmək olar ki, zabit və əsgərlərimiz döyüş meydanlarında böyük hünər və rəşadət göstərərək, adlarını xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazacaqlar.

Xalqımızın tarixində layiqli yer tutan dahilər, bacarıqlı sərkərdələr və dövlət xadimləri çox olub. Onların xalqımıza olan misilsiz və əvəzsiz xidmətləri həmişə dönə-dönə xatırlanır, heç vaxt yaddan çıxmır. Xalq belə böyük və rəşadətli oğullarını zaman-zaman xatırlayıb hörmətlə yad edir. XX yüzillikdə xalqımızın böyük və nəhəng tarixi şəxsiyyətlərindən biri də ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevdir. Nə qədər ki, Azərbaycan xalqı var, Heydər Əliyev də yaşayacaq. Azərbaycan xalqı isə həmişə var olacaq, tarix durduqca yaşayacaq. Xalqımız daim ulu öndər Heydər Əliyevin irsini öyrənir və bundan sonra da öyrənməkdə davam edəcək. Çünki Ulu Öndərin irsi xalqımıza xoşbəxtlik gətirib.

**Vahid MƏHƏRRƏMOV**

# "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda yarışlar keçirilir



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adını qazanmaq uğrunda yarışlar keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun özüyeriyən artilleriya divizionlarının cəlb olunduğu yarışlarda tədris-material baza öyrənilir, həmçinin zabitlərin və ixtisaslı mütəxəssislərin hazırlıq səviyyəsi yoxlanılır, fərdi və qrup şəklində normativlər qəbul edilir. Nəticələr yarışların rəhbərliyi tərəfindən təhlil edilərək ümumiləşdirilir və qiymətləndirilir.

Avtomatik idarəetmə sistemləri ilə təchiz edilmiş, yüksək dəqiqliklə atəş açmaq imkanına malik olan, eyni zamanda döyüş hazırlığı səviyyəsi ilə müsbət tərəfə fərqlənən divizionlar, döyüş atışları icra edərkən əla nəticələr göstərmək və səhra vərdişlərini təkmilləşdirmək uğrunda yarışırlar.



# Qurtuluş tarixinin qələbə günü






*Ötən əsrin əvvəllərində dünyanın bir çox ölkələri, o cümlədən Türkiyə ətrafında cərəyan edən mürəkkəb siyasi hadisələr 1914-cü ildə Birinci Dünya müharibəsinin başlamasına və milli azadlıq hərəkatının vüsət almasına səbəb oldu. Zamanın bu dönəmi Türkiyə tarixinə də qurtuluş savaşları, milli mübarizə illəri kimi yazıldı. Nəhayət, Osmanlı Türkiyəsi də bütün qüvvələrini səfərbər edib dünya müharibəsinə qoşuldu. Bu müharibədə Türkiyə məğlub oldu. Antanta dövlətləri Osmanlı Türkiyəsini ağır məğlubiyyətə uğratdı. Müharibənin sonunda 1918-ci il oktyabrın 30-da qalib dövlətlərlə Türkiyə arasında "Mudros" adlı təslimçi barışıq müqaviləsi imzalandı. Bu barışıq sazişinə əsasən, Osmanlı Türkiyəsi parçalanmalı idi və bununla da işğalçı ölkələr burada istədiyi şəkildə hegemonluq edə bilərdi. Ölkənin Şərqində Ermənistan dövlətinin yaradılması da bu planın tərkib hissəsinə daxil idi.*

Tarixə nəzər salaq: 1919-cu il mayın 15-də yunan qoşunları dünyanın imperialist dövlətlərinin dəstəyi ilə İzmiri ələ keçirdi. İzmirin işğalından sonra təcavüzkar dövlətlərin Türkiyəni parçalamaq siyasətinə qarşı ölkədə milli azadlıq hərəkatı baş qaldırdı. Birinci Dünya müharibəsi cəbhələrində döyüşərək yorğun düşən Osmanlı türkləri yenidən özlərində güc taparaq düşmənə qarşı müqavimət aparırdı, ancaq bu hərəkat kiçik dəstələr halında həyata keçirildiyi üçün nəticəsiz qalırdı. Türk xalqının böyük öndəri Mustafa Kamal Paşa məhz belə bir ağır məqamda 1919-cu il mayın 19-da Samsuna gələrək, xalqı birliyə çağırdı, millətin başladığı milli azadlıq hərəkatına başçılıq keçdi və rəhbərliyi öz üzərinə götürdü.

Mustafa Kamal Paşa Birinci Dünya müharibəsində bir çox uğurlu hərbi əməliyyatlara nail olmuşdu. Osmanlı ordusunun ən istedadlı və ən bacarıqlı generallarından sayılırdı. Təslimçiliyi qəbul etməyən müqavimət qüvvələri 1920-ci il aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisinə toplanır. Mustafa Kamal Paşa bu məclisə sədr seçilir. Bundan sonra parlament milli qurtuluş müharibəsinə başlamağın vaxtı çatdığını elan edir. Ölkənin bu ağır və çətin günlərində səfərbərlik elan edilir. Qadın, gənc, uşaq, yaşlı deməden hər kəs orduya yazılır, böyük Türkiyəni xilas etməyə can atır.

1922-ci il avqustun 6-da orduya gizli olaraq müharibəyə hazırlıq tapşırığı verilir. Bu tapşırıqdan sonra Mustafa Kamal Paşa Akşehirə gələrək ordu komandanlarını bir araya toplayır. Bu toplantıda müharibənin başlanması tarixi avqustun 26-na təyin edilir. Qərara alınır ki, müharibə Afyonun Cənubundan Dumlupınar istiqamətinə doğru hücum halında başlayacaq və sonra meydan müharibəsinə çevrilərək düşmən qüvvələri tamamilə məhv ediləcək.

26 avqust 1922-ci il tarixdə səhər sübh tezdən topçuların atəşi ilə Kocatəpədən meydan müharibəsi başlayır... Döyüşü Baş Komandan Mustafa Kamal Paşa idarə edirdi. Qəhrəman Türk ordusu Cənub, Şimal istiqamətlərindən hərəkət edərək sürətlə irəliləyir, yunanların müdafiə xəttini yarmağa müvəffəq olur və 26-27 avqust gecəsi yunanların silah-sursatını ələ keçirir. Bir neçə gündən sonra Afyon işğaldan tamamilə azad olunur, Dumlupınara doğru geri çəkilən bütün yunan ordusu məğlub edilir. Ölkəsinin azadlığı naminə düşmən üzərinə gedən türk övladı şəhid düşdüyü yeri tapdaq etmədi, özünü Vətən etdi. Öküz arabalarında silah-sursat, əsgərlərə su, çörək daşıyan ayaqyalın türk qadını isti havalarda bu ağır yükün altına girir, ac-susuz döyüşən oğullarına yardım göstərirdi və isti adyalı qucağındakı körpəsinin deyil, yaralı əsgərin üstünə sərirdi. Beləcə, uca türk milləti əzmlə, inamla döyüşdü və zəfər qazandı. Müharibənin sonlarında yunanların komandanı Trikopis əsir alınır. Bu arada Kutahya da düşməndən tamamilə təmizlənir. Bu müharibə Türkiyə tarixinə "Meydan Müharibəsi" kimi düşür. Minlərlə türk əsgəri, gənci, qadını, qocası şəhid oldu bu müharibədə. Lakin bir qarış torpaq belə düşmənə güzəşt edilmədi.

Azərbaycan o çətin sınaq illərində maddi və mənəvi yardımını qardaş Türkiyədən əsirgəmədi. Tədqiqatçı Hüseyn Adıgözəl yazırdı ki, Mustafa Kamal Paşa 1921-ci il martın 17-də, yəni 2-ci İnönü müharibəsindən əvvəl Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub göndərərək maliyyə dəstəyinə böyük ehtiyac duyulduğunu bildirmişdi. N.Nərimanov dərhal büdcədə olan 500 kiloqram qızılı Ankaraya, xeyli miqdarda silah-sursatı da Anadoluya göndərmişdi.

Bütün bunlar qardaşın-qardaşa köməyi, vəfa borcu idi. Bunun ən gözəl izahını biz N.Nərimanovun 1921-ci il martın 23-də Mustafa Kamal Paşaya yazdığı məktubunda görə bilərik. Türkiyə tərəfinin borcları necə qaytaracağı barədə narahatlıq keçirdiyi bir zamanda N.Nərimanov yazırdı: "Paşam, türk millətinin bir ənənəsi vardır - qardaş qardaşa borc verməz. Qardaş qardaşın əlindən tutar, biz qardaş xalqlarıq. Hər zaman və hər şəraitdə bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışırıq. İmkanımız çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz bir qardaşın başqa bir qardaşı üçün etmək istədiyindən başqa bir şey deyil."

Beləliklə, böyük Türkiyənin Qurtuluş Müharibəsi 1922-ci il avqustun 30-da türk xalqının tam qələbəsiylə sona çatdı. 30 avqust tarixi Türkiyə tarixində möhtəşəm gündür.

1923-cü il oktyabrın 13-də Ankara Türkiyə Cümhuriyyətinin paytaxtı elan olundu. Oktyabrın 29-da isə Böyük Millət Məclisi Türkiyə Cümhuriyyətinin rəsmən elan edilməsi haqqında qərar imzaladı.

Dünya tarixindən bəllidir ki, Lozanna sülh konfrasında uzun sürən müzakirələrdən sonra Türkiyə Cümhuriyyətinin mövcud sərhədləri böyük dövlətlər tərəfindən tanındı. 1934-cü ildə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamal Paşaya rəsmi olaraq "Atatürk" soyadını verdi.

Tarixin müxtəlif mərhələlərində - çətin, ağır dönəmlərində Türkiyə və Azərbaycan hər zaman biri-birinə arxa dayaq olub. Qardaş Türkiyə dövləti ilə münasibətlərə xüsusi önəm verən ulu öndər Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinin kürsüsündən çıxış edərək deyirdi: "Türkiyə Böyük Millət Məclisi böyük öndər Mustafa Kamal Atatürkün, onun silahdaşlarının, həmkarlarının səyləri nəticəsində, o dövrdə Türkiyə xalqını daha da irəli aparmaq, mədəniyyətə, demokratiyaya qovuşdurmaq istəyən mütəfəkkir adamların səyləri nəticəsində yaranmışdır...".

İki böyük öndər - "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" söyləyən Atatürk və "Bir millət, iki dövlət" deyən ümummilli lider Heydər Əliyev türk dünyasının dahi şəxsiyyətləridir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Şəxsi heyətin sağlamlığının keşiyindəyik

*"N" hərbi hissəsində olarkən tibb məntəqəsində yaradılan şəraitlə tanış olduq. Məntəqənin xaricdən görünüşü daxilinin də müasirliyindən xəbər verirdi. Geniş otaqlardan ibarət bölmələr və palatalarda təmin olunan gigiyenik şərait, səliqə-sahman nizam-intizamın səviyyəsinin yüksək olmasını göstərirdi.*



Tibb məntəqəsində bizi qarşılayan baş leytenant Vüsal Qafarov yaradılan şəraitlə bağlı fikirlərini bölüşdü: "Səhiyyə ordu quruculuğunda ən mühüm sahələrdən biridir. Sosial-məişət şəraitinin, maddi-texniki bazanın yaxşılaşdırılması, ixtisaslı kadr potensialının təmin edilməsi rəhbərliyin qarşıya qoyduğu ən vacib məsələlərdəndir. Məhz rəhbərliyin yüksək diqqətinin təcəssümüdür ki, hərbi hissələrin tibb müəssisələri müasir standartlara uyğun təmir olunur və yeni tibb məntəqələri istismara verilir."

Müasir tibbi avadanlıqlar barədə bizi məlumatlandıran zabit Vüsal Qafarov, ixtisasartırma kurslarının vacibliyini də qeyd etdi. "Gördüyünüz kimi, tibb məntəqəmiz müasir avadanlıqlarla təchiz olunub. Müasir tibbi avadanlıqlardan istifadə qaydalarını öyrənmək üçün gənc kadrlar ixtisasartırma kurslarına göndərilirlər. Kursları müvəffəqiyyətlə başa vurduqdan sonra ixtisaslaşmış hərbi həkim kimi fəaliyyətimizə davam edirik."

Kiçik çavuş Rəna Əliyeva söhbətində bildirdi ki, peşəmiz müqəddəs bir peşədir. "Hər birimiz Vətənimizin müdafiəçilərinin sağlam olmasına çalışırıq. Qarşımıza qoyulan əsas tapşırıq şəxsi heyətin sağlamlığını yüksək səviyyədə saxlamaqdır. Biz hərbi tibb mütəxəssisləri şəxsi heyətin sağlamlığının keşiyindəyik. Xəstəliklərin qarşısını almaq üçün əsgərlərlə təlimatlandırma və maarifləndirmə işləri aparılır, həmçinin həkimlərimiz tərəfindən müvafiq profilaktik tədbirlər görülür. Yarana biləcək hər hansı xəstəliyin qarşısını alan əsas amillərdən biri gigiyena qaydalarına əməl olunmasıdır. Əsgərlərin vaxtlı-vaxtında yuyunması, paltar, yataq dəstlərinin dəyişdirilməsi xəstəlik hallarını sıfıra endirir."

Apardığımız müşahidələr onu deməyə əsas verir ki, Azərbaycan Ordusu təkcə hərbi gücünə görə deyil, həmçinin hərbi tibb sahəsində də inkişaf etmiş regionun lider ölkəsidir.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarında milli-mənəvi dəyərlərimiz layiqincə təmsil olundu



*Dövlətlərarası münasibətlər həm də müxtəlif beynəlxalq tədbirlərlə möhkəmlənir. Belə tədbirlərdən biri də ənənəvi keçirilən "Beynəlxalq Ordu Oyunları"dır. "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çoxtərəfli hərbi əməkdaşlıq baxımından dəyərlidir. Bu yarışlar Silahlı Qüvvələr arasında qarşılıqlı etimadın, dostluq və rəqabət duyğularının daha da artırılmasını təmin edir. Bu tədbir həm də iştirakçı dövlətin ordusu haqqında təəssüratları zənginləşdirir.*

*"Beynəlxalq Ordu Oyunları-2018" yarışları haqqında geniş məlumat almaq məqsədilə polkovnik Etibar Əliyevlə və polkovnik-leytenant Eldar Sadıqovla görüşdük. Hər məqama aydınlıq gətirən söhbətləri bir həqiqətin təsdiqi bildim: Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır, Azərbaycan mətbəxi, Azərbaycan musiqisi həmişə öncüllər sırasında olub...*

- Rusiya dövlətinin dəvəti ilə ölkəmiz bu beynəlxalq yarışlarda layiqincə təmsil olunur, - polkovnik Etibar Əliyev bildirdi. - Bizim milli-mənəvi dəyərlərimizi əks etdirən stend 32 dövlət arasında ən çox izlənilən və iştirakçılar tərəfindən böyük maraqla qarşılanan sərgilər arasında yer tutdu.

Burada ilk olaraq dövlətimizin adı, atributlarımız - bayrağımız və gerbimiz, ölkə sərhədlərimiz, keçmişlə müasirliyi özündə birləşdirən Bakının foto-şəkilləri əks olunmuşdu. "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının və Müdafiə Nazirliyinin məxsusi nişanları da eksponatlar sırasındaydı. İnsanın ruhunu dincəldən Xəzər dənizinin qoynunda möhtəşəm neftqaz yatağı güclü iqtisadiyyatımız haqqında təəssürat yaradır. Gələnlər tarixi sərkərdələrimizin - Koroğlunun, Cavanşirin, Babəkin, Şah İsmayıl Xətainin, Səməd bəy Mehmandarovun, Həzi Aslanovun, xalqımızın qürur duyulan keçmişində böyük əməyi olan şəxsiyyətlərin rəsmlərinə də maraqla baxırdı, tanımadıqlarını da tanıyırdılar. Müasir Azərbaycanın dövlətçilik memarı, ümummilli liderimiz Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmləri, Ulu Öndərə, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova və başqalarına həsr olunan kitablar xüsusilə diqqəti cəlb edirdi. Müdafiə Sənayesi Nazirliyində istehsal olunan milli silahlarımız da maraq doğururdu.

Polkovnik Etibar Əliyev onu da qeyd etdi ki, bütün stendlərdə Vətənimizin aydın səmaları təsvir olunur. "Aydın səmalar bizim güclü ordumuzun sayəsində mövcuddur. Belə oyunlar ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəlməsində də xüsusi rol oynayır. Qəzet vasitəsi ilə ordumuzun ölkə xaricində yüksək səviyyədə təmsil olunduğunu görən əsgər Vətən keşiyində daha ayıq-sayıq dayanır. Düşünür ki, hamı Vətənimizin parlaq gələcəyi üçün üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməlidir".

Polkovnik-leytenant Eldar Sadıqov dedi ki, tarixi incilərimiz sırasında Qız qalasının, Şirvanşahlar sarayının xüsusi yeri var. "Stendlərimizdə klassiklərimizdən Nizami Gəncəvinin, Xəqani Şirvaninin, Nəsrəddin Tusinin, İmadəddin Nəsiminin və Məhəmməd Füzulinin portretləri ilə yanaşı, Azərbaycanın tolerant ölkə olduğunu ifadə edən nişanə də yer almışdı. Torpaqları işğal altında olan ölkədə bu hal maraqla qarşılanırdı. Qobustan qayaüstü rəsmləri, Atəşgah, Əlincə, Mərdəkan, Şuşa və Əsgəran qalaları çox qədim tariximizin nişanələridir. Neft estakadasını - Neft daşları şəhərini, tarixin irəliləyən mərhələlərini, milli xörəklərimizin - dolmanın, pitinin, kababların, təndir çörəyinin və s. şəkillərini də sərgidə yerləşdirmişdik."



Stenddə, həmçinin əl işi və fabrikdə toxunan xalçalarda butalar, ornamentli görüntülər də diqqət çəkirdi. Milli musiqi alətlərimiz haqqında müfəssəl məlumat verilirdi. Balabanın IV əsrə, saz və kamançanın XVI əsrə, tarın XVII əsrə, qavalın orta əsrlərə aid olduğu, zurnanın üç min illik tarixi də stenddə öz əksini tapmışdı. Üç dildə dərc olunan "Azərbaycanın musiqi alətləri" kitabı da sərgiyə gələnlərin diqqətini çəkirdi. Çövkən oyunu haqqında geniş məlumat, müxtəlif ornamentli əşyalar da sərgiləndi.

Quraşdırılmış monitorda yayımlanan tanıtma çarxında ölkəmiz haqqında geniş məlumat, tarixi abidələrimiz, turizm zonalarımız, bu il 100 illiyini qeyd etdiyimiz ordumuz və yaddaşlarda məxsusi iz buraxan, qürurlandığımız hərbi parad, "Dəniz Kuboku-2018" beynəlxalq yarış haqqında məlumatlar bir-birini tamamlayırdı.

Milli mətbəximizin şirniyyatlarından - Gəncə və Şəki paxlavası, şəkərbura, bal və Azərbaycan çayı qonaqlara ikram edilirdi. Şirniyyatları dadanlar maraq və heyranlıqlarını bildirirdi: Azərbaycanın şirniyyyatları əvəzedilməzdir.

Polkovnik Etibar Əliyev onu da bildirdi ki, beynəlxalq yarışların keçirildiyi günlərdə Rusiya Müdafiə naziri Sergey Şoyqu və müavinləri Beynəlxalq Ordu Oyunları çərçivəsində yaradılan "Dostluq Evi"nə baş çəkiblər. Nümayiş etdirilən sərginin Azərbaycana aid bölməsində ölkəmizin tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, məişətinə aid eksponatlarla yaxından tanış olublar. Stenddə əks olunanlarla ən incə detalına kimi maraqlanıblar, məlumatları diqqətlə dinləyiblər. Rusiya Müdafiə naziri Sergey Şoyquya milli xalq çalğı alətlərindən ibarət suvenir hədiyyə olunub.



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da sərgi ilə yaxından tanış oldu və öz razılığını bildirdi.

Polkovnik-leytenant Eldar Sadıqov qürurla qeyd etdi ki, ötən illərdən bizim stendlə yaxından tanış olan iştirakçılar "Azərbaycan həmişə olduğu kimi, bu dəfə də hamıdan yaxşıdır", "Yenə də Azərbaycan" deyirdilər.

Polkovnik Etibar Əliyev və polkovnik-leytenant Eldar Sadıqov yüksək professionallıq və təşkilatçılıq qabiliyyətlərinə görə Beynəlxalq Ordu Oyunları Assosiasiyasının Prezidenti, Rusiya Quru Qoşunları Komandanı general-polkovnik O.Salyukov tərəfindən təşəkkür məktubu ilə təltif olunublar. Bu, qürurvericidir...

Sərgidə klassik estrada janrında ifaçılar arasında Xəyyam Mustafazadə birinci yerə layiq görüldü.

Beynəlxalq yarışlar boyu müxtəlif dövlətləri təmsil edən iştirakçılar xatirə dəftərinə təəssüratlarını yazıblar. Hər qeyddə Azərbaycana ehtiram, sevgi...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Ordenli igidlərimiz*

# Qəhrəmanlar ölmür

SSRİ kimi böyük imperiyanın dağılmasından, xalqımızın azadlıq uğrunda mücadiləsindən, 20 Yanvar hadisələrindən, müharibənin törətdiyi çətinliklərdən bizi 30 ilə yaxın zaman ayırır. Bu illər ərzində çox şey dəyişdi. Ölkəmiz, eləcə də onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası müstəqilliyin işığında böyük bir inkişaf yolu keçdi. İndi müstəqil, azad bir ölkənin xoşbəxt vətəndaşlarıyıq. Həyatımızın axarı, yaşam tərzimiz, dünyaya baxışımız da dəyişib. Uşaqlarımız güllə səsindən və hər bir çətinlikdən uzaq, şən, firavan böyüyür. Gündüzlər insanlar işə tələsir, gecələr bağları, parkları istirahətə gələnlərin gülüşləri bəzəyir. Çıraq işığında səhəri açdığımız gecələri indi şəhərin dörd bir yanında gur işıqlar əvəzləyir. Bütün çətinliklər arxada qalıb. Hər şey dəyişib. Dəyişməyən gerçəklər də var: biz o gerçəkləri yaşadıq, göz yaddaşımıza, hafizəmizə yazıldı. 1990-cı illərdə yaşanan ağır hadisələrin və insanların vətənpərvərliyinin şahidləri olduq. O vətənpərvərlik idi ki, silahın, texnikanın çatışmadığı bir dövrdə Naxçıvanı erməni işğalından qorudu, o vətənpərvərlik hissi idi ki, insanları yumruq tək öz ətrafında birləşdirdi, o əqidə idi ki, düşmənə əsir düşməsin deyə, sonuncu gülləsini özünə sıxan oğullar adını tarixin qəhrəmanlıq səhifəsinə yazdırdı.

Vahid komandanlığa tabe olan ordunun yoxluğundan istifadə edən ermənilər Naxçıvana bir neçə istiqamətdən aramsız hücumlar edirdilər. Sədərək, Havuş, Günnüt kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən daha intensiv hücumlara məruz qalmışdı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəldərək Kərki kəndini işğal etdilər.

İnsanlar belə bir məqamda Vətənin dar günündə Naxçıvana gələn Ümummilli Liderin ətrafında sıx birləşərək bu qədim Azərbaycan diyarını mərdliklə qorudular. Keçmiş SSRİ-nin müxtəlif şəhərlərində məskunlaşmış həmyerlilərimizdən də geri qayıdanlar oldu. Onlardan biri də Murmanskdan Şərura üz tutan Asəf Bayram oğlu Rəhimov idi.

Asəf Bayram oğlu Rəhimov 1960-cı il yanvarın 24-də Şərur rayon Düdəngə kəndində anadan olub. 1967-ci ildə Düdəngə kənd orta məktəbinə gedib. 1977-ci ildə məktəbi bitirən Asəf Rəhimov Bakıda 2 saylı peşə məktəbinə daxil olur. 1981-ci ildə hərbi xidmətini başa vurub doğma yurduna qayıdan Asəf Rəhimov təhsilini davam etdirmək üçün 1982-ci ildə Murmanska yollanır. 1983-86-cı illərdə Murmansk şəhərində yeməklərin hazırlanması üzrə texnoloq fakültəsində oxuyub təhsilini başa çatdırır və həmin şəhərdə əmək fəaliyyətinə başlayır. Vətənin dar günündə Asəf Rəhimov doğma elinə qayıdır və 1990-cı ildə Şərur rayon Polis şöbəsində işə düzəlir. Polis nəfəri kimi döyüşlərdə iştirak edən Asəf Rəhimov şücaətlər göstərir, "Əlibaba" ləqəbi ilə tanınır.

Həmin dövrdə təkcə Düdəngə kəndindən 32 polis nəfəri ön cəbhədə düşmənlə üzüzə dayanmışdı. Onlardan biri də Asəf Rəhimov idi. Sədərək döyüşlərinin iştirakçısı olan Asəfin müdafiəsində iştirak etdiyi ərazilər Günnüt kəndi və onun ətrafı oldu. Günnütün alınması düşmən üçün böyük önəm daşıyırdı. Bu istiqamətdən ermənilərin məskunlaşdıqları Çanaxçı və Cəfərli kəndləri, həmçinin Xankəndinə gedən yol əl içi kimi görünürdü. Bu ərazilər 1992-ci ilə qədər ordumuzun nəzarəti altında olub. Öz müdafiə mövqelərini möhkəmlətmək baxımından Günnüt ermənilər üçün mühüm strateji əhəmiyyətə malik idi.

Həmin dönəmdə Günnütün "Əlibaba" ləqəbi ilə tanınan Asəf Rəhimov kimi müdafiəçiləri vardı. Qarşı tərəfdən fərqli olaraq müasir texnikaları, silahları olmasa da, güclü iradələri, Vətən eşqi, sarsılmayan əzmləri vardı.



Xarici görünüşünə və rus dilində mükəmməl danışdığına görə azərbaycanlı olduğunu təyin edə bilməyən ermənilərə Asəf dəfələrlə psixoloji zərbə vurmuşdu. Kəşfiyyat xarakterli məlumatları toplayaraq geri qayıdan Asəf arxasınca bir iz buraxardı. Ermənilərə "Alibaba bıl zdes, ("Əlibaba" burada olub)" mesajını ötürən Asəf, sözün əsl mənasında, düşmənə od qoyurdu. Mərmi kimi partlayan sözlərin yazıldığı kağız parçasını tapanda isə artıq Asəf ərazidən çox uzaqlarda idi. O dövrdə belə bir ideyayla döyüşürdülər: Asəf Rəhimov düşmənin layiqli cavabını verən igidlərdən idi.

## Sonuncu güllə

1992-ci ildə Sədərəkdə qızğın döyüşlər gedərkən düşmən müdafiə qüvvələrimizi parçalamaq məqsədilə Günnüt kəndini də atəşə tuturdu. Günnütü asanlıqla ala bilməyəcəyini görən düşmən qüvvəsini bura yönəldir. İlk vaxtlarda böyük itki verən ermənilər Günnüt kəndini vertolyotla hava hücumuna məruz qoyub yerlə-yeksan edirlər. Qeyri-bərabər döyüşdə Mərdan Abbasov adlı döyüşçü ağır yaralanır, polis işçilərini atəş xəttindən çıxaran digər döyüşçü isə mühasirəyə alınır. Bu "Əlibaba" ləqəbi ilə düşmənin canına vəlvələ salan Asəf Rəhimov idi. Düşmən üçün "Əlibaba" uğurlu hədəf idi. Məqsəd onu diri tutmaq, qalib ədasıyla güc nümayiş etdirmək və "Əlibaba"dan qisas almaq idi. Lakin "Əlibaba" erməni quldurlarına yenilmədi. Düşmənin məqsədinin qurbanı olmadı. "Əlibaba" elini, obasını sevən bir qəhrəman idi. O Vətən naminə etdiyi fədakarlığına görə ad qazanmışdı. Ölüm qorxusumu güc gələcəkdi? Heç bir qüvvə onun qürurunu, Vətənlə qoşa döyünən ürəyini, sarsılmaz ruhunu əsir edə bilməzdi. Son ana qədər erməni quldurları ilə təkbaşına döyüşən "Əlibaba" 17 nəfər silahdaşını xilas etdi, düşmən tərəfini itkiyə məruz qoydu. Ayağından güllə yarası alan Asəf artıq çıxış yolu olmadığını anlayır. Dörd bir tərəfdən mühasirədə qalan qəhrəman sonuncu gülləni özünə sıxır. Bundan qəzəblənən ermənilər Asəfin ölüsünü belə rahat buraxmırlar. Ermənilərin dəfələrlə dərsini verən Asəf onlar üçün ölüm kabusu idi. Erməni vəhşiləri öldüyünə əmin olmaq üçün meyiti tanınmaz hala salırlar, bununla da ürəkləri soyumur. Özləri ilə meyiti də götürüb gedirlər.

## Günnütün ilk şəhidi

"Əlibaba" elə bir ad-san qazanmışdı ki, onun ölümünə inanmaq çətin idi. Şücaəti ilə qəlblərdə ölümsüzlük heykəli ucaltmışdı. Ölümündən sonra Asəfin axtarışı bir neçə gün davam edir. Ulu öndər Heydər Əliyevin səyi ilə Asəf Rəhimovun meyiti geri qaytarılır. Asəf Günnütün ilk şəhidi və müdafiəçisi kimi adını tarixə qızıl hərflərlə yazdırır. Həmin ildə Asəfin şücaəti ilə bağlı silsilə yazılar qəzet səhifələrində yer alır, qəhrəmanlığı örnək göstərilir. Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2002-ci il tarixli sərəncamı ilə Asəf Bayram oğlu Rəhimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunur. Məzunu olduğu Düdəngə kənd orta məktəbinə adı verilir və məktəbin həyətində büstü ucaldılır. Oğlu Əfqan Rəhimov bu gün atasının yolunu davam etdirərək Kəngərli rayon Polis şöbəsində öz xidməti vəzifəsini ləyaqətlə yerinə yetirir.

## "Rahat uyu şəhidim, Günnütdən düşmən ayağı kəsilib"

Düz 26 il sonra 2018-ci ilin mayında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi uğurlu hərbi əməliyyat nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı 11 min hektar ərazi düşməndən azad edilir. 26 kilometr məsafəni əhatə edən əməliyyat nəticəsində 7 kilometrədək dərinlikdə əlverişli yüksəkliklər ələ keçirilir. Həm də itkisiz. Günnüt əməliyyatı son illərdə həyata keçirilən ən uğurlu hərbi əməliyyat kimi tarixdə öz yerini aldı.

Qısa müddətdə dağlıq şəraitdə xidmətin təşkili üçün lazımi şərait yaradıldı. Mühəndis-istehkam tədbirləri görüldü, postlar arasında dayanıqlı rabitə əlaqəsi yaradıldı, yeni səngərlər qazıldı. Ön xətdəki mövqelərlə yanaşı, dayaq məntəqələrində də etibarlı müdafiə sistemi qurulub. Eyni zamanda ərazidə yeni yollar çəkilib, postlar arasında rahat əlaqə təmin edilib.

Asəfin uğrunda canını fəda etdiyi, bu gün işğaldan azad olunan Günnütdə indi üçrəngli bayrağımız dalğalanır. Rahat uyu, şəhidim, Günnütdən düşmən ayağı kəsilib. Müzəffər ordumuz o murdar ayaqları Laçınımızdan, Şuşamızdan, Xankəndimizdən, Kəlbəcərimizdən... də kəsəcək.

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti növbəti məşğələ və təlimlərə cəlb olunub

*Naxçıvan Muxtar Respublikasında yerləşən birləşmə, hissə və bölmələrdə döyüş hazırlığı planına uyğun olaraq, praktiki məşğələlər və növbəti komanda-qərargah təlimi keçirilir.*





Əlahiddə Ümumqoşun Ordunun Mətbuat Xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, üç pilləli və iki mərhələli olmaqla keçirilən növbəti komanda-qərargah təlimində praktiki fəaliyyətlərə cəlb edilmiş bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb.

Komanda-qərargah təliminin birinci mərhələsində ərazidə müdafiə və hücum əməliyyatlarının qərargahlar tərəfindən planlaşdırılması, ikinci mərhələsində isə qəbul edilmiş qərarların Simulyasiya mərkəzində kompüterlər üzərində icrası həyata keçiriləcək.

Aviasiya bölmələrində keçirilən təlim-məşq uçuşları zamanı Su-25 hücum təyyarələri və Mİ-35 döyüş helikopterləri ilə yer hədəflərinə müxtəlif döyüş manevrlərindən hücum məşq etdirilib.

Tank bölmələri ilə kompleks məşğələlərdə tankçılarımızın sürücülük və atəş bacarıqları yoxlanılaraq qiymətləndirilib. Tankçıların Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki trenajorlarda virtual olaraq mənimsədikləri vərdişlər, səhra şəraitində təşkil olunan praktiki məşğələlərdə daha da təkmilləşdirilib.

*Hərbi təhsil*

# Azərbaycanda milli hərbi təhsilin yüz illik tarixi




Bakı Piyada Məktəbi 1917-ci ilin noyabrında "Qırmızı Komandirlər Kursu"nun əsasında yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə, iki ilə yaxın fəaliyyət göstərən ilk hərbi məktəbimiz 4 buraxılış keçirə bilmişdi.

Aprel işğalından sonra Müdafiə naziri Səməd bəy Mehmandarovun verdiyi 238 saylı 28 aprel 1920-ci il tarixli əmri ilə Cümhuriyyət Ordusu yeni yaranmış Azərbaycan Sovet Hökumətinə tabe edilir. Yeni qurulmuş hökumət ordunun adını dəyişib Azərbaycan Fəhlə-Kəndli Qırmızı Ordusu adlandırır. Müvafiq olaraq hərbi məktəbin də adı Yığma Qırmızı Komandir Heyəti Məktəbi olur və hərbi məktəb Bakı şəhəri Budyonovskaya 15 ünvanında fəaliyyətinə davam edir. 7 iyun 1920-ci il tarixli 161 saylı əmrlə Heydər Vəzirov məktəb rəisi təyin olunur.

1921-ci ilin mayında piyada, süvari, istehkamçı və pulemyot bölmələrindən ibarət Fəhlə-Kəndli Komandir Kursları yaradıldı. Sonra bu kurslar Azərbaycan Sovet Birləşdirilmiş Qırmızı Komandirlər Məktəbi adlandırıldı.

15 dekabr 1921-ci ildə ikinci pilləli Birinci Azərbaycan Hərbi Məktəbinin rəsmi açılışı oldu və məktəbə 137 nəfər qəbul edildi. Kursantların xahişləri nəzərə alınaraq məktəbə Əliheydər Qarayevin adı verildi. 1 aprel 1922-ci ildən məktəbin adı dəyişdirilərək 1-ci Qırmızı Kadet Korpusu, 14 sentyabr 1922-ci ildən 1-ci Azərbaycan Proletar Hərbi Məktəbi, 31 avqust 1923-cü ildən Fəhlə Kəndli Qırmızı Ordusunun (FKQO) Zaqafqaziya Proletar Hərbi Hazırlıq Məktəbi, 1 oktyabr 1924-cü ildən isə FKQO-nun Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi adlandırıldı. Bu təhsil ocağı Cənubi Qafqaz millətlərinin gənclərini hərbi məktəblərə hazırlamağa başladı.

8 fevral 1926-cı ildə Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinə Serqo Orconikidze adı verildi. Məktəbin birinci buraxılışı 6 avqust 1926-cı ildə olur. Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinin 31 oktyabr 1930-cu ilədək buraxılmış məzunlarının çoxu Sovet Ordusunun generalları və zabitləri kimi şərəfli döyüş yolu keçirlər.

1 noyabr 1930-cu ildə məktəb yenidən təşkilatlanaraq 3 illik təhsil müddətli orta təhsil müəssisəsi səviyyəsində formalaşdı və FKQO-nun komandir heyətinin S.Orconikidze adına Bakı Piyada Məktəbinə çevrildi.

Məktəb mayın 31-dən başlayaraq yay təlim dövründə düşərgəyə çıxmağa başladı. Kursantlar düşərgədə öz əlləri ilə tədris sinifləri, yeməkxana, klub, idman şəhərciyi və meydançalar, eyni zamanda zamanın tələblərinə görə (həmin illər üçün) ən müasir atış şəhərciyi yaratdılar.

1932-ci ilin yazında gənc komandirlərin növbədənkənar ikinci buraxılışı oldu, ordunun hərbi hissələrindən isə kiçik komandir heyəti tərkibindən yeni çağırış keçirildi, qısa müddətli tədris kursları təşkil edildi.

1932-ci ildə Bakı Piyada Məktəbi Azərbaycan SSRİ Mərkəzi İcra Komitəsi tərəfindən "Qırmızı Bayraq" ordeni ilə təltif olunur. 1933-cü ilin yeni tədris dövründə isə məktəb xüsusi tikilmiş hərbi şəhərciyə köçürülür.

1934-1935-ci ilin yay tədris mövsümündə birləşmiş kursant bölüyünün şəxsi heyəti dəniz səviyyəsindən 4250 metr hündürlükdə olan Şahdağ yüksəkliyini fəth edir.

8 aprel 1937-ci ildə FKQO-nun komandir heyətinin S.Orconikidze adına Bakı Piyada Məktəbi SSRİ Müdafiə Xalq Komissarının əmri ilə yenidən təşkilatlanaraq S.Orconikidze adına Bakı Piyada Məktəbi adlandırıldı. Birinci çağırışla məktəbə 440 kursant qəbul edildi.

Bakı Piyada Məktəbi 1939-cu ilin əvvəlində yeni quruluşa, yeni ştata keçdi.

Bir kursant taboru əvəzinə, ikisi formalaşdırıldı, bundan başqa ehtiyatda olan komanda (komandir) heyətinin hazırlığı kursları yaradıldı.

1939-cu ildə ümumi hərbi mükəlləfiyyət haqqında yeni qanunun qəbul edilməsi qarışıq ərazi (milli) kadrlar hazırlığı prinsipinə son qoydu və yalnız ordunun təşkilatlanmasına əsasən kadrlarla komplektləşmə sisteminə keçirildi.

1939-1940-cı ildə hərbi məktəb ştatını iki dəfə artırdı: 1939-cu ildə 3-cü tabor, 1940-cı ildə isə 4-cü tabor formalaşdırıldı. Gənc komandirlərin sürətli buraxılışına başlandı. 4 ay ərzində sürətli buraxılışla (təlim proqramı ilə) 500 leytenant-taqım komandiri buraxıldı və ordunun komplektləşməsinə göndərildi.

23 iyun 1941-ci ildə SSRİ Müdafiə Xalq Komissarının əmri ilə məktəb sürətləndirilmiş 6 aylıq tədris proqramına keçdi. Kursantlar üçün 12 saatlıq iş rejimi müəyyənləşdirildi: 8 saat tədris məşğələləri, 4 saat müstəqil hazırlıq üçün.

Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq SSRİ Müdafiə Xalq Komissarının əmri ilə 7 iyul 1941-ci ildə məktəbin bazasında 2-ci və 3-cü Bakı Hərbi Piyada məktəbləri yaradıldı.

1942-ci ilin iyulunda məktəbdə leytenant və kiçik leytenantların yeni buraxılışı oldu. Onların yarıdan çoxu Cənub cəbhəsinə, qalanları isə Cənubi Qafqaz cəbhəsinin Şimal ordu qrupuna göndərildi.

1942-ci ilin avqustunda S.Orconikidze adına Bakı Piyada Məktəbinin sonuncu taqım komandirlərinin buraxılışı oldu. 10 avqust 1942-ci ildə piyada və pulemyot-minaatan hərbi məktəblərin yoxlama nəticələrinə görə S.Orconikidze adına 1-ci Bakı Piyada Məktəbinin komandir heyətinə SSRİ Müdafiə Xalq Komissarının müavini tərəfindən təşəkkür elan edildi.

16 sentyabr 1942-ci ildə S.Orconikidze adına 1-ci Bakı Piyada Məktəbi Cənubi Qafqaz cəbhəsinə göndərilərək 164-cü, 165-ci əlahiddə atıcı briqadaların tərkibinə daxil edildi.

25 oktyabr 1942-ci ildə şəxsi heyəti bütünlüklə cəbhəyə göndərilmiş hərbi məktəblərin bazasına Duşeti şəhərində (indiki Çeçenistan) yerləşmiş 2-ci çağırış Qrozni Piyada Hərbi Məktəbi köçdü.

13 mart 1945-ci ildə Bakıda fəaliyyət göstərən 2-ci çağırış Qrozni Piyada Hərbi Məktəbinin adı yenidən dəyişdirilərək Bakı Piyada Məktəbi adlandırıldı.

Zabit hazırlığının say tərkibi dəyişdirildi. 1945-ci ilin aprelində Bakı Piyada Məktəbində yeni ştat strukturu quruldu. Şəxsi heyətin sayı beş dəfə azaldıldı.

Zabit kadrların hərtərəfli hazırlanması üçün 1946-cı ilin iyulundan üç illik proqramla hazırlıq başlandı. 1947-ci ilin oktyabrında isə Bakı Piyada Məktəbi özünün müharibədən sonra ilk üç illik proqramla hazırlanmış kursantlarının buraxılışını keçirdi.

1958-ci ilin ortalarında SSRİ Nazirlər Sovetinin qərarına əsasən, hərbi məktəblər orta təhsil sistemindən ali təhsil sisteminə keçdi. 1 sentyabr 1958-ci ildə məktəb yeni tədris sisteminə böyük təntənə ilə başladı.

Bu təhsil ocağı 1966-cı ildən Azərbaycan Ali Soveti adına Bakı Ali Ümumqoşun Komanda Məktəbi adlandırıldı.

1973-cü il 7 aprеldə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev məktəbi ziyarət etmişdir. Həmin dövrdə Heydər Əliyev mütəmadi olaraq məktəbin fəaliyyəti ilə maraqlanır və buraxılış günlərində məzunlarla bir yerdə olurdu. O zaman orduda azərbaycanlı zabit kadrlarının sayının artmasında Heydər Əliyevin böyük rolu olmuşdur.

1991-ci ildə SSRİ dağıldıqdan və Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Ali Soveti adına Bakı Ali Ümumqoşun Komanda Məktəbi yenidən formalaşdı. Nəticədə 1988, 1989, 1990-ci illərdə təhsil alan SSRİ ölkələrinin vətəndaşları olan kursantlar təhsillərini davam etdirmək üçün öz vətənlərinə və Rusiya Federasiyasının hərbi məktəblərinə köçürüldülər.

1992-ci ilin aprelindən məktəb Azərbaycan Respublikasının hüquqi tabeliyinə keçirildi. Məktəbin adından Azərbaycan Ali Soveti sözləri çıxarıldı. Motoatıcı qoşunlar üçün zabitlərdən başqa, məktəb 13 hərbi peşə üzrə zabitlər hazırlamağa başladı.

Bakı Ali Ümumqoşun Komanda Məktəbinin kursantları erməni təcavüzkarlarının törətdiyi Qarabağ müharibəsində, ərazi bütövlüyümüzün və suverenliyimizin qorunmasında fəal iştirak etdilər.

1992-ci ilin dekabrında ümumqoşun fakültəsinin birinci kursunun şəxsi heyətindən ibarət tabor yarandı və döyüş tapşırığını yerinə yetirmək üçün Ağdam bölgəsinə göndərildi. Gənc kursant taboru vətənpərvərlik və cəsurluq nümunələri göstərərək itkisiz döyüş tapşırığını yerinə yetirdi.

Eyni zamanda 1993-cü ilin fevralında ümumqoşun fakültəsinin ikinci kursundan 72 nəfərdən ibarət bölük yaradıldı, döyüş tapşırığını yerinə yetirmək üçün Ağdərə bölgəsinə göndərildi.

Məktəbin zabit və kursantları 1994-cü ilin qış və yaz döyüş kompaniyalarında Murovdağ istiqamətində erməni təcavüzünə sinə gərmiş, verilən döyüş tapşırıqlarını layiqincə yerinə yetirmişlər.

Məktəbi bitirən yüzlərlə gənc zabit öz Hərbi andına sadiq qalaraq müstəqilliyimiz və dövlətimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə rəşadət və igidlik göstərmişdir. Onlarla məzun Vətən naminə öz canlarını fəda etmiş və şəhidlik zirvəsinə ucalmışdır. Döyüşlərdə göstərdiyi igidliklərə görə məktəbimizin məzunlarından bir qismi Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı və başqa fəxri adlara layiq görülmüşdür.

1997-ci ildə hərbi məktəb "Qırmızı Şərq" şəhərciyindən Zığdakı Dənizçilik Məktəbinin bazasına köçürüldü. Həmin bazada dənizçilik, təyyarəçilik və quru qoşunları hərbi məktəbləri birlikdə fəaliyyət göstərməyə başladı. Təlim prosesi müasir NATO standartlarına uyğunlaşdırıldı.

20 avqust 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Bakı Ali Birləşmiş Ümumqoşun Komandirlər Məktəbinin adı dəyişdirilərək Azərbaycan Ali Hərbi Məktəbi oldu.

10 mart 2004-cü ildən Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Ali Hərbi Məktəbi Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını daşıyır.

2014-cü ildə məktəbin strukturu dəyişdirildi və tədris proqramı yeniləndi. Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Quru Qoşunları, Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri ixtisasları üzrə üç fakültədən ibarət olub, bakalavr ali təhsil pilləli leytenantlar hazırlayır.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi Azərbaycanda yaranmış, xüsusən də, Bakıda yerləşmiş və fəaliyyət göstərmiş bütün hərbi kursların, məktəblərin və ali təhsil müəssisələrinin hərbi ənənələrinin varisidir və davamçısıdır. 100 illik inkişaf və döyüş yolu olan tarixə malikdir.

**Polkovnik
Mirqiyas RÜSTƏMOV,
Heydər Əliyev adına
Azərbaycan Ali Hərbi
Məktəbin Humanitar və
Sosial fənlər kafedrasının
rəis müavini - Hərbi fənlər
silsiləsinin rəisi**

Fiziki hazırlıq

# Sağlamlıq döyüş ruhu deməkdir

*Fiziki hazırlıqla məşğul olmaq günün nizam qaydasının mühüm tərkib hissələrindəndir. Döyüş hazırlığının tərkib hissəsi kimi, idman şəxsi heyətin sağlamlığının möhkəmləndirilməsinə və fiziki göstəricilərinin inkişafına güclü təsir göstərir.*



"N" hərbi hissəsində də şəxsi heyətin idman sağlamlığının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Hərbi hissənin idman şəhərciyində fiziki hazırlıq məşğələlərinin səmərəli təşkili üçün hərtərəfli şərait var.

Leytenant Elsevər Əliyev çalışmanın icrasını mərhələlərlə nümunəvi şəkildə əsgərlərə nümayiş etdirirdi. Əsgərlər çalışmanı istəklə yerinə yetirməyə səy göstərirdilər. Hiss olunurdu ki, əsgərlərin fiziki hazırlığa marağı yüksəkdir.

Zabit bildirdi ki, idman sağlam bədəndə sağlam ruhun qorunub saxlanmasına xidmət edir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini 2016-cı ildə bitirən zabit qeyd etdi ki, təhsil aldığı dövrdə idmana xüsusi önəm verib. "Qarşıya qoyulan tapşırığın vaxtında, uğurla yerinə yetirilməsi üçün hərbi qulluqçunun nəzəri biliklərlə yanaşı, fiziki cəhətdən hazırlıqlı olması da vacibdir. Çünki döyüşlərdə düşmənə qalib gəlmək üçün dözümlü olmalı, cəld və çevik hərəkət etməlisən. Əsgərlərin fiziki hazırlığının artırılmasını diqqətdə saxlayırıq. İdman məşğələlərinin səmərəli keçirilməsi üçün bütün imkan və vasitələrdən istifadə edirik. Bölmənin şəxsi heyəti təyin olunmuş vaxtlarda idmanla məşğul olur. Məşğələlərdə fiziki güc tələb edən çalışmalara daha çox üstünlük veririk. Əsasən dözümlülük, güc, cəldlik və çeviklik çalışmaları yerinə yetirilir. Hərbi hissəmizdə vaxtaşırı müxtəlif idman yarışları keçirilir. Qalib gələnlər komandanlıq tərəfindən mükafatlandırılır."

Elsevər Əliyevlə söhbətləşdikdən sonra əsgərlərə nəzər yetirdik. Quba rayonundan hərbi xidmətə çağırılan Mircəlal Ağalarovun uşaqlıqdan idmana xüsusi sevgisi olub. Gənc karate ilə məşğul olub. O, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşlərə atılmağa hər zaman hazır olduğunu qeyd etdi. "İdman sağlamlığımız üçün vacibdir. Hərbi xidmət keçən hər kəs bilir ki, idman onun həyatında vacib amillərdəndir. Fiziki cəhətdən hazırlıqlı olmayan əsgər döyüşdə uğur qazana bilməz."

Əsgərlər Sahil Abdullayev, İslam Hacıyev, Elgün Həsənov, Tofiq Bayramov və başqaları da eyni fikirləri bildirdilər. Ordumuz Ali Baş Komandanımızın rəhbərliyi altında işğalda olan torpaqlarımızı azad etməyə hazır olduqlarını dedilər.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**



## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 28-də Göygöl rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster aparıblar.

# Anım günü inam üçündür

*İşğal hər bir azərbaycanlının ağrı-acısıdı, könül qubarıdı. Onu heç kim unutmur, unutmayacaq. Qubadlının işğalı da unudulmayacaq. Azərbaycan əsgəri onu işğaldan azad edən gün unudacaq.*




Qubadlı 1993-cü il avqustun 31-də işğal edilib. Bu işğal rayonun əhalisini olmazın müsibətlərə düçar edib. Rayonun mərkəzində də, kəndlərində də evlər yerlə-yeksan olub, nə qədər tarixi abidələr dağılıb. Döyüşlərdə onlarla qubadlılı şəhid olub. O şəhidlərin ruhu da qələbə gününün tezləşməsinin intizarındadı...

Mən tələbəyəm. Qubadlının işğalı mənim yaşımdan böyükdür. Bu işğalla bağlı oxuduqlarım, eşitdiklərim qəlbimi göynədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi bir kəlamı işğalçı dövlət unutmamalıdır: "Azərbaycan dövləti, Azərbaycan xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək". Biz tələbələr də ordumuza inanırıq, güvənirik. İnanırıq ki, torpaqlarımız işğaldan azad ediləcək, Qubadlı da Cocuq Mərcanlı kimi yenidən qurulacaq. İşğalın anım gününü bu inamla xatırlayırıq...

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*28 avqust 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 94 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə axtarışda olan daha bir təhlükəli terrorçu məhv edilib




Türkiyə təhlükəsizlik qüvvələri ölkənin Ağrı vilayətinin Doğubayazıt bölgəsində daha bir uğurlu antiterror əməliyyatı keçirib. Hərbi Hava Qüvvələrinin qırıcılarının dəqiq atəşi ilə iki təhlükəli terrorçu zərərsizləşdirilib. Onlardan biri "Tolhildan" ləqəbli Fecri Demirdir.

Bir sıra ağır cinayətlərdə, o cümlədən terror aktlarının təşkilində və icrasında ittiham olunan Fecri Demir Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən təhlükəli terrorçu kimi axtarışda olub.

## İran ordusuna yeni qırıcı təyyarə təqdim olunub



İranın Hərbi Hava Qüvvələrinin istifadəsinə tam yerli istehsal olan "Kövsər" qırıcı təyyarəsi verilib.

İran Hərbi Sənaye Təşkilatının icraçı direktoru general Əbülkərim Bəni Torfinin verdiyi məlumata görə, "Kövsər" hərbi qırıcı təyyarəsi tam milli istehsaldır və onun heç bir cihazı xaricdən alınmayıb. Bu təyyarə yüksək manevr imkanına malikdir və raketlə yanaşı, ağır bombalar da daşıya bilər. Təyyarənin mühərriki də yerli firmalar tərəfindən istehsal edilərək Hərbi Sənaye Təşkilatına verilib.

Təyyarənin təqdimat mərasimində iştirak edən Prezident Həsən Ruhani İranın hərbi sənayesinin gücləndiyini qeyd edərək diqqətə çatdırıb ki, İran bölgədə və dünyada sülhün bərqərar olmasına çalışır və yeni təyyarənin istifadəyə verilməsi müdafiə xarakteri daşıyır.

## Misirdə 5 terrorçu məhv edilib



Misirin Daxili İşlər Nazirliyi Asyut-Sohaq trasının dağlıq hissəsində terrorçular ilə polis arasında baş verən atışma nəticəsində 5 terrorçunun məhv edildiyi barədə məlumat yayıb.

Bəyanatda hüquq-mühafizə orqanlarına ekstremistlərin yeri barədə məlumatın daxil olduğu bildirilir. Həmin yerə gedən qanun keşikçilərinə silahlılar tərəfindən atəş açılıb. Polisin cavab atəşi nəticəsində 5 terrorçu məhv edilib. Onların üzərində avtomat silahlar və döyüş ləvazimatları aşkar edilib.

## Finlandiya NATO ilə əməkdaşlığı genişləndirmək arzusundadır



Finlandiyanın xarici işlər naziri Timo Soyni ölkəsinin NATO ilə əməkdaşlığının vacibliyini vurğulayıb.

Timo Soyninin sözlərinə görə, NATO Avropanın təhlükəsizliyi üçün əhəmiyyətli rol oynayır və məhz bu baxımdan Finlandiya sözügedən qurumla əməkdaşlığa maraqlıdır.

Xarici İşlər naziri deyib ki, Finlandiya NATO-ya üzv olmadan da onunla əməkdaşlıq edə bilər.

## Yaponiya raketlərə qarşı müdafiəsini "Aegis Ashore" yerüstü sistemi ilə gücləndirəcək



Yaponiya ballistik raketlərə qarşı özünün çoxsəviyyəli müdafiəsini yerüstü "Aegis Ashore" sistemi ilə gücləndirəcək.

Bu barədə avqustun 28-də Tokioda nəşr olunan və 2018-ci ildə ölkənin müdafiə strategiyasını əks etdirən "Ağ kitab"da deyilir.

"Yeni sistem raketlərin yalnız "Aegis"lərlə təchiz olunan esmineslər vasitəsilə deyil, eyni zamanda, "Aegis Ashore" vasitəsilə də qarşısını almağa imkan yaradacaq", - deyə kitabda vurğulanır. "Ağ kitab"da xatırlanır ki, Yaponiyanın raketə qarşı müdafiə (RQM) sistemləri müdafiənin çoxsəviyyəli təşkilini nəzərdə tutur. Bu zaman yuxarı səviyyədə ballistik raketlər hərbi gəmilərdəki "Aegis" sistemi vasitəsilə, aşağı səviyyədə isə "Patriot" PAC-3 raketləri ilə məhv edilir.

**AZƏRTAC-ın materialları əsasında**

Ordu və cəmiyyət

# “Sən qalib gələcəksən!”

*Məktub ünsiyyətdir, yazanın istəyinin, niyyətinin daşıyıcısıdır. Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. Hamı o günün tezləşməsini istəyir - oğlu, qardaşı hərbi xidmətdə olanlar da, şəhid atası da anası da, yeniyetmə də, ağlı kəsən uşaq da. Hamı inanır ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Xalq orduya inanır, orduya güvənir. Bu inam, bu güvənc aprel ovqatlıdı.*

*Orduya məktəblilər, uşaqlar da inanır, güvənir. Onların ön xətdə xidmət edən əsgərlərə yazdığı məktublar ünvanına müxtəlif üsullarla, əsasən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin xətti ilə çatdırılır. Belə məktublar Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığında əhəmiyyətlidir. Məktəbli istəyinin nə olduğunu səngərdə oxuyan əsgərin döyüş əzmi, qələbə ruhu daha da yüksəlir...*

*Ön xətdə xidmət edən əsgərlərdən birinə çatdırılması üçün redaksiyamıza göndərilən məktəbli məktubunu oxuyunca qürurlandıq. Belə düşünən, belə məktub yazan məktəblinin timsalında ictimaiyyətin orduya ehtiramına, inamına qürurlandıq. Məktubu səngərdə komandirin məsləhət gördüyü əsgərə çatdırdıq. Əsgərin bu məktuba münasibətinə qürurlandıq. Səngərə məktublar da, səngərdən bu məktublara yazılan cavablar da ordu-ictimaiyyət münasibətinin səviyyəsinin təsdiqidir...*

**"Azərbaycan Ordusu"**



## Səngərə məktub

Salam, əsgər qardaşım!

Səni tanımıram, sən də məni tanımırsan. Tanımaya-tanımaya səni özümə qardaş bilirəm. Siz torpaqlarımızı qoruyursunuz, bizi qoruyursunuz. Ona görə hər birimizin əzizisiniz.

Atam sizdən, sizin xidmətinizdən danışdıqca tez böyümək istəyirəm. Bəlkə də sənin mən yaşda qardaşın var. Sənin qardaşınla əsgər yoldaşı olacağıq. Onda qardaşın səndən, sizdən, qalib əsgərlərdən ürəklə danışacaq...

2016-cı ilin aprel döyüşlərində siz məktəbdə oxuyurdunuz. Həmin döyüşlərdə iştirak edə bilməmişdiniz. İndi əsgərsiniz. Ali Baş Komandan əmr verəndə döyüşəcəksiniz. Hamı kimi mən də inanıram ki, qələbə qazanacaqsınız. Onda yanınıza gələcəm. Sizi tanıyacam, hər birinizin boynuna sarılacam.

Əsgər qardaşım, mənim məktubumu döyüşdən qabaq qardaş istəyi kimi oxu. Sən qalib gələcəksən!..

Sağ olun!

**Qalib ƏLİYEV,**
**İncəsənət Gimnaziyasının V sinif şagirdi**

## Səngərdən məktub

Salam, məktəbli qardaşım Qalib!

Məktubun məni həm sevindirdi, həm də duyğulandırdı. Sən də hamı kimi bizə inanırsan. İnanırsan ki, torpaqlarımız işğaldan azad ediləcək. Biz azad edəcəyik. Bizdən sonra xidmətə çağırılanlar dövlət sərhədlərimizdə xidmət edəcəklər. Sən də bunu arzulayırsan.

Biz Nizamnamələrin tələblərinə uyğun xidmət edir, komandirlərimizin, zabitlərimizin hər bir əmrini sözsüz və məsuliyyətlə yerinə yetiririk. Bu, bizim vəzifə borcumuzdur. Döyüş növbətçiliyində daha diqqətli oluruq. Bilirik ki, bizim döyüş növbətçiliyimiz torpaqlarımızın işğaldan azad edilməsində olduqca gərəklidir. Düşmənin təxribatlarının qarşısını almaq gələcək döyüşlərdə qələbə ruhu deməkdir.



2016-cı ilin aprel döyüşlərində biz də məktəbli idik. Onda mən də, sinif yoldaşlarım da döyüşlərə getmək istədik. Məktəbli olduğumuza görə icazə verilmədi. İndi hərbi xidmətdəyik. Aprel döyüşləri haqqında komandirlərimizin, zabitlərimizin təəssüratları, məlumatları hər birimizin döyüş əzmini, qələbə ruhunu yüksəldib. Burada zabitlərdən, təcrübəli əsgərlərdən çox şey öyrənmişik, öyrənirik. Ali Baş Komandanın əmrinə hazırıq. Hər birimiz torpaqlarımızı işğaldan azad edəcək əsgərlərin sırasında olmaq istəyirik. Yazırsan ki, qələbə günü yanımıza gələcəksən. Hansı əsgərlə görüşsən, elə bilərsən ki, o mənəm.

Sağ ol, Qalib. Sağ ol ki, ürəyin bizim yanımızdadı, sağ ol ki, bizə güvənirsən.

Hələlik. Qələbə gününün təntənəsində görüşənədək.

**Əsgər**
**Kənan ƏKBƏRLİ,**
**“N” hərbi hissəsi**

---

Vətəndaş olaraq cəmiyyətdə baş verən hər bir hadisə bizi maraqlandırır. Dövlətə, dövlətçiliyə bağlı olanlardan həmişə qürur duyuruq.

Müharibə şəraitində yaşayırıq və bu müharibə hər bir vətəndaşın taleyindən keçir. Hər bir vətəndaş vaxtilə torpaqlarımızın işğaldan azad edilməsini işğal olunmuş rayonlarda yaşamışlar qədər arzulayır, həmin günün həsrətindədi.

Son illər həyata keçirilən irimiqyaslı islahatlar ordumuzun döyüş qabiliyyətini, şəxsi heyətin döyüş əzmini, qələbə ruhunu yüksəldib.

"Açıq qapı" günü son illər ordu-ictimaiyyət münasibətlərini daha da şəffaflaşdırır.

Müdafiə nazirinin əmrilə keçirilən bu tədbir ictimaiyyətə kifayət qədər geniş informasiya verir və bu informasiyalar ictimaiyyətin ordu haqqında bilgilərini dərinləşdirir.



Yaxın qohumlarımdan biri hərbi xidmətdədi. "Açıq qapı" günü mən də getmişdim. Gördüklərim, müşahidə etdiklərim ordumuz haqqında bildiklərimi xeyli zənginləşdirdi: səliqəli əsgər yataqxanaları, hər cür avadanlıqlarla təchiz olunmuş idman meydançası, geniş, işıqlı yeməkxana,... əsgər analarının, atalarının baxışlarında gördüyüm şükranlıq mənim təəssüratlarımı daha da dönməzləşdirdi.

Ana əsgər oğluna baxırdı, əsgər anasına. Heç biri dinib-danışmırdı. Baxışları danışırdı. Və az sonra ana oğlunu bağrına basdı. Əsgər anasına nəsə dedi. Ananın qolları bir anlığa oğlunun boynundan üzüldü. "Boyuna qurban olum, ay oğul, əlbəttə, qəhrəman olacaqsan. Sən də qalib əsgərlər sırasında olcaqsan!", - dedi ana. Ana həm də oğlunun düşüncələrinə sevinirdi, oğlunun inamla dediyi kəlmələr ananın ürəyini dağa döndərmişdi...

"Açıq qapı" günü təkcə analarla, atalarla əsgər oğulun görüş günü deyil. "Açıq qapı" günü həm də inamın, etibarın təsdiqi günüdü.

"Açıq qapı" günündə bir həqiqətin təsdiqini gördüm: analar belə anadı, əsgərlər belə əsgərdi...

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

# İdman

## Avropa çempionatında uğurla çıxış edən paralimpiyaçı atletlərimiz vətənə qayıdıblar




Almaniyada keçirilən Avropa çempionatında uğurla çıxış edən Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (ARMPK) atletika idman növü üzrə milli komandası vətənə qayıdıb.

Komandamız Berlindəki yarışa dörd atletlə qatılıb.

Millimizin üzvlərindən Oloxan Musayev və Samir Nəbiyev qitə çempionatında yığmamızın aktivinə iki gümüş medal yazdırıblar.

## Sualtı ovçuluq üzrə açıq Azərbaycan çempionatı keçiriləcək



Sentyabrın 1-2-də paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində sualtı ovçuluq üzrə açıq Azərbaycan çempionatı keçiriləcək.

Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAIREX) və Bakı Sualtı Ovçular Klubunun dəstəyi ilə təşkil olunacaq çempionatda otuzadək idmançı mübarizə aparacaq.

İkigünlük yarışlar çərçivəsində, həmçinin Azərbaycanda dayvinq və s. idman növlərinin inkişafı ilə bağlı mühazirələr də dinləniləcək. Bundan başqa, çempionatda azyaşlı iştirakçılar və azarkeşlər üçün müxtəlif müsabiqə və viktorinalar təşkil ediləcək. Çempionatın tamaşaçıları üçün əyləncəli proqramlar da tərtib olunacaq.

## Azərbaycan boksçuları Rusiyada keçirilən beynəlxalq yarışda 1 qızıl və 2 bürünc medal qazanıblar



Rusiya Federasiyası Çeçenistan Respublikasının paytaxtı Qroznıda kişi boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb.

Çeçenistan Respublikasının sabiq Prezidenti Əhməd Kadırovun xatirəsinə həsr olunan sayca 10-cu yarışda Azərbaycan millisi 1 qızıl və 2 bürünc medal qazanıb.

Komandamızın heyətində Məhəmməd Abdullayev (91 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək çempion tituluna yiyələnib. O, finalda hindistanlı Kumar Satişi 3:2 hesabı ilə məğlub edib. Digər boksçularımızdan Araz İmaməliyev (52 kq) və Cəbrayıl Yelikov (81 kq) üçüncü yeri tutublar.

Yığmamız komanda hesabında dördüncü yerdə qərarlaşıb. İlk pilləyə beş qızıl, altı gümüş və yeddi bürünc medal qazanan Rusiya sahib olub.

## Voleybol üzrə qadınlardan ibarət Azərbaycan yığması beynəlxalq turnirdə Rusiya komandası ilə qarşılaşıb



Antalyada voleybol üzrə "Gloria Cup" beynəlxalq turniri keçirilir.

Azərbaycanın qadınlardan ibarət voleybol yığması üçüncü matçında Rusiya millisi ilə qarşılaşıb.

Görüş 3:0 (25:21, 25:20, 25:18) hesabı ilə rəqib komandanın qələbəsi ilə yekunlaşıb.

Xatırladaq ki, birinci oyunda yığmamız Türkiyə komandasına 3:0 hesabı ilə uduzub. İkinci matçda isə İtaliya millisinə 3:0 hesabı ilə qalib gəlib.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 530
Nüsxə 3525